# Müasir dövlətçiliyin alqoritmini, konturlarını riyazi dəqiqliklə müəyyənləşdirən Lider




***Müstəqillik tarixində ən mühüm dönüş nöqtələrindən biri şübhəsiz ki, Prezident İlham Əliyevin 2003-cü ildən başlayaraq ölkəyə rəhbərliyi milli və beynəlxalq səviyyədə ortaya qoyduğu strategiyaların nəticəsi olaraq xalqın güclü dəstəyi ilə bu liderliyini davam etdirməsidir. 2018-ci il aprelin 11-də keçirilən növbədənkənar prezident seçkilərində İlham Əliyevin 86,02 faiz səs çoxluğu ilə qələbə qazanması Azərbaycanın dövlətçilik ideallarının və strateji hədəflərinin 4-cü dəfə mükəmməl təzahürü kimi qiymətləndirilir.***

2018-ci il prezident seçkilərində qazanılan qələbə Azərbaycanın müstəqillik və dövlətçilik tarixində əhəmiyyətli siyasi mərhələ təşkil edir. Bu cəmiyyətin öz rəhbərinə olan güvəninin, siyasi və sosial həssaslığının ifadəsidir. Bu dövr ölkənin hərtərəfli inkişafı, müstəqilliyin qorunması, vətəndaş cəmiyyətinin möhkəmlənməsi və dövlətin beynəlxalq mövqeyinin artması, həmçinin siyasi plüralizmin və demokratiyanın inkişaf etdirilməsi ilə xarakterizə olunur.

Ulu Öndər Heydər Əliyev siyasi irsinin çevik formada davam etdirilməsi Azərbaycan dövlətinin daha da güclənməsini, müasir dövrün çağırışlarına cavab verə biləcək davamlı və uzunmüddətli inkişaf strategiyalarının həyata keçirilməsini təmin etdi. Prezident İlham Əliyev məqsədyönlü siyasətini fəlsəfi müstəvidə azərbaycançılıq ideologiyasına sadiq qalmaqla həyata keçirir, bu ideyanı cəmiyyətin hər bir üzvü üçün vahid milli kimlik, sosial birlik və mədəni irs kimi təsvir edərək dövlətin əsas güc mənbəyi olaraq təqdim edir.

2003-2018-ci illər Azərbaycan Respublikasının tarixində özünəməxsus inkişaf dövrü kimi xatırlanır. Bu illər ərzində əldə olunan nəticələr yalnız iqtisadi islahatlarla məhdudlaşmadı. Cənab İlham Əliyevin rəhbərliyi ilə iqtisadi, siyasi, hüquqi və mədəni sahələrdə həyata keçirilən islahatlar Azərbaycanın dayanıqlı inkişafına zəmin yaratdı, ölkə iqtisadiyyatı sürətli artım yoluna qədəm qoydu, müasir infrastruktur quruldu, enerji təchizatında yenilikçi siyasətlər həyata keçirildi. Azərbaycan elektrik enerjisi idxal edən ölkədən ixrac edən ölkəyə çevrildi, iqtisadiyyatın şaxələndirilməsi, kənd təsərrüfatı sahəsində böyük irəliləyişlərin əldə olunması ilə nəticələndi. Regionların sosial-iqtisadi inkişafını təmin etmək, əhalinin sosial rifahını yüksəltmək, vətəndaşların həyat şəraitini yaxşılaşdırmaq məqsədilə genişmiqyaslı layihələrə başlandı. Bu dövrün əsas xüsusiyyətlərindən biri iqtisadiyyatın modernləşdirilməsi və rəqabətədavamlılığın artırılması yönündə atılan addımların uğurlu olması idi. Mədəniyyətin və təhsilin inkişafına böyük əhəmiyyət verildi, müasir təhsil sisteminin qurulması, elmi tədqiqatların stimullaşdırılması, həmçinin yeni mədəniyyət layihələrinin həyata keçirilməsi, ölkənin dünya səviyyəsində tanınmasına və beynəlxalq mədəniyyətlərarası dialoqa töhfə verdi.

Beynəlxalq təşkilatlar, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ölkənin ədalətli mövqeyini dəstəklədilər. Qeyd etmək lazımdır ki, 15 il ərzində bir çox nüfuzlu beynəlxalq qurumlar Azərbaycanın sülh təklifləri istiqamətində mühüm qətnamələr qəbul etdilər. Bu qətnamələrdə aydın şəkildə vurğulanırdı ki, münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli mümkündür. BMT-nin Baş Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM və digər beynəlxalq təşkilatlar münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyini birmənalı şəkildə dəstəkləyən qərarlar verdilər. Bundan əvvəlki dövrdə də BMT Təhlükəsizlik Şurası və ATƏT münaqişənin həlli üçün hüquqi əsaslar yaradan qətnamələr qəbul etmiş, münaqişənin yalnız Azərbaycanın suverenliyi çərçivəsində həll oluna biləcəyi bəyan edilmişdir. Beləliklə, Azərbaycan beynəlxalq təşkilatların geniş dəstəyini qazanmış, Ermənistanın işğalçı siyasətini ifşa etməklə münaqişənin həlli istiqamətində yeni mərhələyə qədəm qoymuşdur.

Prezident İlham Əliyevin xarici siyasət kursu Azərbaycanın strateji mövqeyini daha da gücləndirdi və ölkənin beynəlxalq aləmdəki rolunu artırdı. 2004-cü ildə Avropa Qonşuluq Siyasətinə (AQS) qoşulmaqla başlayan proses 2006-cı ildə Avropa İttifaqı ilə enerji sahəsində strateji tərəfdaşlıq müqavilələsinin imzalanması ilə davam etdi. Azərbaycan bu dövr ərzində həm enerji təminatında, həm də nəqliyyat sektorunda yeni təşəbbüslər irəli sürərək beynəlxalq əlaqələrini möhkəmləndirdi və Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən formalaşdırdı. Ölkəmizin BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzv olması beynəlxalq aləmdəki mövqeyinin gücləndiyini bir daha təsdiqlədi. Azərbaycanın xarici siyasətindəki ən böyük uğurlardan biri isə Cənub Qaz Dəhlizi və TANAP layihələrinin reallaşdırılmasıdır. Bu layihələr Azərbaycanın beynəlxalq enerji bazarında ciddi təsir gücünə malik olduğunu göstərdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yalnız daxili deyil, həm də xarici siyasətdə ciddi irəliləyişlər əldə etdi. Bu dövrün əsas xüsusiyyətlərindən biri torpaqların işğaldan azad edilməsi üçün həyata keçirilən hərbi islahatlar və strateji qərarların alınmasıdır. Bunun ən bariz nümunəsi Azərbaycan Silahlı Qüvvələrinin müasir texnologiyalarla təchiz edilməsi və 2020-ci il Qarabağ Zəfəri ilə əldə edilən böyük qələbədir. Ölkə başçısının hərbi və müdafiə sahəsindəki strateji liderliyi Azərbaycanın geosiyasi mövqeyinin güclənməsini, xalqın milli idealları ətrafında birləşməsini və ölkənin beynəlxalq aləmdə tanınmasını təmin etdi. Silahlı Qüvvələri modernləşdirmək inkişafa yönəlmiş uzunmüddətli prosesin başlanğıcı idi. Hərbi infrastrukturun təkmilləşdirilməsi, orduya yeni texnologiyaların inteqrasiyası və hərbi təlimlərin mükəmməlləşdirilməsi Azərbaycanın regional və beynəlxalq təhlükəsizlik sistemindəki mövqeyini gücləndirən mühüm addımlar oldu. 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən hərbi parad ordunun döyüş hazırlığının və milli gücünün simvolu oldu. Azərbaycan Silahlı Qüvvələrinin qüdrətinin digər göstəricisi 2018-ci ildə dünyanın ən güclü 50 ordusu sırasına daxil olması idi. Bu həm də hərbi strateji düşüncə, milli təhlükəsizlik doktrinası və beynəlxalq münasibətlərdəki güc balansı ilə əlaqədardır. Bu sahədə keçirilən islahatlar Azərbaycan Ordusunun, həmçinin dövlətin beynəlxalq səviyyədə mövqeyini möhkəmləndirdi.

2020-ci ilin 27 sentyabrında başlayan və 44 gün sürən Vətən müharibəsi Azərbaycan üçün milli ideyanın - ərazi bütövlüyü və suverenlik anlayışının mübarizə və zəfərlə təsdiqləndiyi bir dövr oldu. Qarabağ Zəfəri Prezident İlham Əliyevin uzaqgörənliyi, yüksək sərkərdəlik qabiliyyəti əsasında qazanıldı. Bu qələbə eyni zamanda Azərbaycanın geosiyasi mövqeyini gücləndirərək dünya səhnəsində ölkənin strateji əhəmiyyətini daha da artırdı. 44 günlük müharibənin ilk anlarından etibarən ölkə başçısı döyüşlərin strateji yönünü təyin edərək Azərbaycan Silahlı Qüvvələrinin hər bir əməliyyatını ən yüksək səviyyədə idarə etdi. Azərbaycan xalqı öz liderinin ətrafında sıx birləşdi. Prezident İlham Əliyevin apardığı diplomatik, informasiya müharibəsi, Azərbaycanın qələbəsini təmin edən əsas faktorlardan oldu. Qarabağ Zəfəri həm də dövlətin gücünü, xalqın iradəsini və ölkənin milli təhlükəsizlik sahəsindəki mövqeyini möhkəmləndirdi. Dövlət başçımızın hərbi komandanlıq bacarığı və zəngin təcrübəsi Azərbaycanın milli təhlükəsizliyini təmin etdi. Cənab Prezident həm də qüdrətli lider olaraq xalqa vətənpərvərlik hisslərini aşıladı, milli ideallara sadiq qalmaq üçün hərtərəfli imkanlar yaratdı. Prezidentin hərbi liderlik təcrübəsi, müharibə zamanı sərgilədiyi qərarvermə qabiliyyəti cəmiyyətin bütün təbəqələrini bir araya gətirərək müharibə strategiyasının uğurla həyata keçirilməsini təmin etdi.

Qarabağ Zəfəri xalqın iradəsinin, milli şüurun və liderlik fenomeninin sinergiyası nəticəsində yaranmış strateji və mənəvi yüksəliş idi. Ölkəmiz bu zəfərlə beynəlxalq sistemdə yalnız geosiyasi subyekt kimi deyil, həm də öz daxili suverenliyinin dərin mahiyyətini və ümummilli ideallarının kontekstində siyasi-mənəvi konsolidasiyasını nümayiş etdirdi. Qarabağ Zəfəri həm də millətin kollektiv varlıq fəlsəfəsinin - "Volksgeist"in təntənəli manifestinə çevrildi.

Bu gün Qarabağ postkonflikt dövrünün paradiqması olaraq dekonstruktiv siyasi reallıqların əvəzinə konstruktiv dövlətçilik baxışlarının və postmodern inkişaf modelinin mərkəzidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən kompleks bərpa və reinteqrasiya siyasəti həm urbanizasiya strategiyaları, həm də sosial antropologiyanı əhatə edən "Böyük Qayıdış" konsepsiyası ilə tamamlanır. "Ağıllı şəhər" və "ağıllı kənd" layihələri mədəni və tarixi identikliyin bərpasını təmin edən memarlıq-fəlsəfi sintezə çevrilir.

Azərbaycanın inkişaf modeli siyasi və iqtisadi determinantlarla yanaşı, həm də tarixi məsuliyyət ideyasına əsaslanır. Bu model realpolitiklə mənəviyyatın, geopolitik manevr imkanları ilə milli-mədəni yaddaşın harmonik vəhdətidir. Prezident İlham Əliyev strateq obrazının XXI əsr formatında təcəssümüdür. Dövlət başçısının praqmatik və konseptual liderliyi Azərbaycanın beynəlxalq münasibətlər sistemində həm Şərq, həm də Qərb arasında körpü rolunu möhkəmləndirmiş, ölkəni regional sabitliyin və enerji təhlükəsizliyinin əsas vektoru halına gətirmişdir. Bütün bu proseslər sübut edir ki, 2003-cü ildə başlanan inkişaf kursu 2018-ci ildən etibarən siyasi-nəzəri baxımdan yeni bir diskursla davam etdirilərək Azərbaycanın beynəlxalq hüquq və diplomatiya müstəvisində öz identik statusunu daha da gücləndirmişdir. Bu yol tarixi zərurətdən doğan siyasi uzaqgörənliyin, milli həmrəyliyə əsaslanan liderliyin və zamanın ruhuna istiqamət verən iradənin yoludur.

Beləliklə, Prezident İlham Əliyevin liderliyi Azərbaycanın müasir tarixində yeni ontoloji mərhələnin - Zəfərlər yazan liderlik epoxasının başlanğıcıdır. Bu epoxa zamanın axarına istiqamət verən, tarixi yaddaşla gələcək vədini sintezləyən böyük bir millətin yenidən doğuluşunun fəlsəfi kodudur.

**Tacir SADIQOV,**
**"Respublika".**